## *METODİKA: FƏNLƏRİN TƏDRİSİNİN ÜMUMİ MƏSƏLƏLƏRİ*

# TƏLİM KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ SİNERGETİKANIN ROLU

**Təranə İsayeva,**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
E-mail: taranaisayeva@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* İ. Cəbrayılov,
*ped.ü.fəls.dok.* D. Musayev

***Açar sözlər**: təhsil, sinergetik yanaşma, təlim prosesi*
***Ключевые слова**: образования, синергетический подход, процесс обучение*
***Key words**: the science, synergetic approach, learning process*

*Təhsil həqiqəti ötürmək sənətidir, həqiqət şagirdin ağlına və ürəyinə sirayət etməyincə, təhsilin vəzifəsi yerinə yetirilməmiş hesab olunur. Əlbəttə ki, uşaq öyrəndiyi mövzuya maraq göstərməlidir, lakin bu, ona dəlalət etmir ki, uşağı maraqlandıran hər şey dəyərlidir. Bu, boş sözdür. Müəllimin məharəti ondan ibarətdir ki, uşağın maraqları layiqli hədəflərə, xüsusilə özü-özlüyündə həqiqətin dərk edilməsinə yönəldilsin*

*on Uald*

Təhsil dövlətin, cəmiyyətin əsasıdır. Təhsil hər bir insanın həyatında mühüm rol oynayır və onu formalaşdırır. Dövlətimiz müstəqil təhsil siyasəti yeridir. Təhsil islahatlarının tələbləri şagirdlərin idrak fəallığının gücləndirilməsinə, onlarda özünüdərk, müstəqillik qabiliyyətlərinin inkişaf etdirilməsinə, həyati bacarıqlarının, şagird şəxsiyyətinin formalaşdırılmasına istiqamətləndirilmişdir. Bilik, bacarıq, vərdiş, dəyər və keyfiyyətdən ibarət olan kompetensiyaların əsas məqsədi gənc nəslin müstəqillik qabiliyyətini inkişaf etdirməklə onlarda təlim və əmək bazasının formalaşdırılmasına istiqamət verməkdir.

Hələ XVIII əsrdə yaşamış görkəmli pedaqoq İ.H. Pestalotsi yazırdı: Mənim şagirdlərim yeniliyi məndən yox, özləri öyrənib açacaqlar. Mənimsə başlıca vəzifəm onların ideyalarının inkişaf etdirilməsinə kömək göstərmək olacaqdır (1, 367).Tarixi təcrübə və dövrün tələbləri göstərir ki, təhsilin inkişafı, eyni zamanda sinergetik yanaşmanın tətbiqi ilə bağlıdır.

Sinergetika insanın bütün həyatını fasiləsiz surətdə davam edən bir funksiyalar silsiləsi kimi götürür. İnsanın keçdiyi əsas mərhələləri düzgün müəyyənləşdirmək və onların hər birinin keyfiyyət özünəməxsusluğunu, habelə digərləri ilə ümumi və oxşar cəhətlərini dəqiqləşdirmək baxımından çox önəmlidir. Spesifik insan varlığının hüdudsuz potensialını şərtləndirən təbii, iqtisadi, sosial, mədəni, mənəvi və psixoloji determinantlarının çoxsəviyyəli və iyerarxik qaynaqlarını aşkara çıxarmaq qüdrəti də sinergetikanın danılmaz cəhətlərindəndir. İnsan varlığının hərtəfli inkişafı, şəxsiyyətin özünümüdafiə, özünütəsdiq imkanları və bütövlükdə yaradıcılıq qabiliyyətlərinin reallaşdırılması sinirgetikanın tələbləri və prinsipləri ilə həmahəng səslənir. Sinergetika dərketmənin yeni strategiyasını yaratmışdır: sistemlilik, özünütəşkil və qlobal təkamülçülük. Bu elm qədim sivilizasiyanın müdrikliyi ilə təbiət və humanitar elmlərin nailiyyətlərini sintez edərək, təbiət–insan-cəmiyyəti birləşdirərək bütövləşdirən konsepsiya yaratmışdır (2).

Sinergetika müasir dərsin mühüm istiqamətlərindəndir. Sinergetika sözü qədim yunan dilində birgə təsir, birgə fəaliyyət mənasını verir. Sinergetikanın məqsədi təlimdə özünüdərkin aşkara çıxarılmasıdır. Sinergetika sadədən mürəkkəbə doğru hərəkətin idrakı prosesidir. Bunun üçün də gələcəyə yeni nəsil hazırlamaq

məqsədilə ilk növbədə onlarda bilik, bacarıq, vərdiş və dəyərləri formalaşdırmaq lazımdır.

Ümummilli liderimiz Heydər Əliyev demişdir: "Biz müstəqil dövlət olaraq özümüzün təhsil sistemimizi istədiyimiz kimi qururuq." Məhz bütün bunları göstərərək qeyd etmək lazımdır ki, təlimin keyfiyyətini yüksəltmək üçün müasir pedaqoji texnologiyaların, təlim metodlarının dərslərdə tətbiq edilməsinin çox böyük əhəmiyyəti vardır. Müasir texnologiyalar vasitəsilə dünyada gedən qloballaşma həyatın bir çox sahələrinə öz təsirini göstərir. Təcrübə göstərir ki, təhsilin istənilən pillə və səviyyəsində təhsil alan şagird və ya tələbə qlobal şəbəkəyə çıxaraq keçirilən mövzuya dair yetərincə informasiya almaq imkanına malikdir (3).

Təhsilalanlara xalqımızın tarixi keçmişinin öyrədilməsi, onlarda vətənpərvərlik, əməksevərlik hissinin formalaşdırılması üçün tarix fənninin tədrisində geniş imkanlar vardır. Tarix fənni qədim dövrdən başlamış günümüzə qədər təbiətdə, cəmiyyətdə baş vermiş bütün hadisə və faktları, prosesləri təlim prosesində öyrədir. Tarixi faktlar şagirdlərə güclü, emosional təsir göstərir və onlar dərk edildikcə bu təsir daha da artır. Tarix fənni təlim prosesində, hər şeydən əvvəl innovativ funksiyanı yerinə yetirir. Sözsüz ki, təlim prosesində müəllimin anlaşıqlı, canlı sözü şagirdləri tarixi şəxsiyyətlərin müsbət nümunəsi əsasında tərbiyə edir. Bu, onların əxlaq tərbiyəsinə də müsbət təsir göstərir. Şagirdlərdə vətənpərvərlik hisslərinin formalaşdırılması, eyni zamanda fənlərarası əlaqə zamanı həyata keçirilir.

Y.A. Komenskiyə görə, qavrayışın üç səviyyəsi vardır. Birinci səviyyədə təfəkkür, ikinci səviyyədə yaddaş, üçüncü səviyyədə isə əllər işləyir. Qeyri-klassik, humanist pedaqogikanın məqsədi şəxsiyyətin inkişafından ibarətdir (4).

Sinergetik yanaşma şagirdlərin həm bu günün, həm də gələcək tələbatlarının tələblərinə uyğun bilik və bacarıqlarının formalaşmasına imkan yaradılır. Bu baxımdan strategiyalı oxu mühüm əhəmiyyət kəsb edir.

Təlim prosesində təlimin keyfiyyətinin yüksəldilməsində strategiyalı oxu ilə bağlı müxtəlif yanaşmalar mövcuddur. Strategiyalı oxu zamanı şagird məharətlə düşünməyi bacarır. Strategiyalı oxunun əsas məqsədi təhsilin, tərbiyənin inkişaf etdirilməsidir. Tarix təlimində mətn üzərində işi təşkil edərkən strategiyalı oxucu avtomatik olaraq təlimdən əvvəl, təlim zamanı və təlimdən sonra baş verən idraki bacarıqları əlaqələndirir. Strategiyalı oxunun əsas prinsipləri aşağıdakılardır: İdrak və yüksək idrak bacarıqları, məqsədlərin müəyyənləşdirilməsi, yeni bilikləri, səbəb və nəticə əlaqələrinin dərk edilməsi, təşkilati işarə və fərdi oxu üslubunun üstünlüyü, təlimdə əməkdaşlıq, düşünmənin üç mərhələsinin cəlb edilməsi.

Mətndə strategiyalı oxu zamanı düşünmənin üç mərhələsi baş verir:

Planlaşdırma mərhələsi, qarşılıqlı fəaliyyət (təlim zamanı düşünərək yadda saxlamağı) və " düşünmə mərhələsini təlimdən sonra inteqrasiya edir, əlaqələndirir və fikirləri tətbiq edir.

Dərsin keyfiyyətinin yüksəldilməsində istənilən tədris modelinin əsas elementi məqsədin qoyuluşundan asılıdır.

Şagirdlərin bilik, bacarıq, və qabiliyyətlərinin aşkar və inkişaf etdirilməsində dünya təcrübəsində geniş yayılmış Hovard Qardnerin nəzəriyyəsinin böyük əhəmiyyəti vardır.

Müasir dünya psixologiya və pedaqogikasında H. Qardnerin "çox intellektlilik" nəzəriyyəsinə görə beynin imkanları tədris prosesində üzə çıxarılıb öyrənilmişdir.

O, dərketmənin səkkiz üsulunun mövcud olduğunu göstərmişdir:

1. Linqvistik. 2. Riyazi məntiqi. 3. Vizual məkan. 4. Kinestetik, 5. Fərdlərarası, 6. Fərddaxili 7. Musiqi ritmik, 8. Naturalist.

Qardnerin fikrincə, insan bu qabiliyyətlərin hamısına az-çox da olsa malikdir. İnsanda olan qabiliyyətlərin inkişaf etdirilməsi biliklərin mənimsənilməsini yaddaşda daha uzun müddət saxlanılmasını təmin edir.(5)

Hovard Qardner demişdir: Mən uşaqlarımın dünyanı anlamalarını istəyirəm. Ona görə yox ki, dünya möhtəşəmdir və insan beyni həmişə bu barədə düşünür. Mən onların dünyanı anlamalarını ona görə istəyirəm ki, onların bu məkanı yaşamaq üçün daha yaxşı yer etməyə imkanları olsun. Bunu anlamaqda əsas məqsəd bizim kim olduğumuzu və nəyə qadir olduğumuzu dərk etməkdir. Bunun üçün biz anlamamızı özümüz idarə edə bilərik. Dərketmə bacarığı vasitəsilə biz bu qəribəliklər dolu dünyada yaxşılıq və ya pislikləri anlayırıq. Sinergetikanın məqsədi də elə budur ki, təlimdə özünüdərkin aşkara çıxarılmasına imkanlar açsın. Hovard

Qardnerin təhlilləri göstərir ki, əxlaqi mühitdə əsas məqam birinin digər insanların həyatında kiçik rolunun olması və onun digərlərinə münasibətdə əks etdirməsidir. Bu baxımdan əsas vəzifələri yerinə yetirmək, təbii ki, digər dərketmələri tələb edir: fərdi, linqvistik, məntiqi və s. O zaman əxlaq, şəxsiyyət, fərdilik, iradə və xasiyyət, nəticədə insan təbiətinin yüksək səviyyədə realizasiyası deməkdir (6).

Sinergetik pedaqogika dünyagörüşünün formalaşması, vətənpərvərliyin və milli şüurun, mənəvi başlanğıcın və şəxsiyyətin inkişafı, təhsil sisteminin yaradıcı quruculuğuna doğru yönəlmə, Vətənin mənfəəti naminə insanlara qulluq etmək cəhdi kimi məsələləri ehtiva edir. Sinergetik metodologiya şagirdi üçölçülü məkanda təsvir edir. Absis oxu - dünyanın ən klassik, ənənəvi pedaqoji təsviridir. Ordinat oxu - qeyri-klassik, humanistdir. Fəzanın ənginliyinə doğru yönələn ox - sinergetik olub, həqiqətə daha yaxındır. Vətənə xidmət, yaxınının rifahı naminə və əsas ümumi prinsipə xidmət, bu oxun əsasını təşkil edir. Sinergetika komponenti tədris fəaliyyətinin məqsədlərini dərk etməklə əlaqədar məsələlərin geniş dairəsini əhatə edir.

Müasir məktəb təhsili öz üstünlükləri ilə ənənəvi məktəbdən seçilir. Ənənəvi məktəb baş-beynin sol yarımkürə mərkəzləri üçün gərginliyin qeyri-bərabər qaydada paylanmasında və verbal-səs təfəkkürünün inkişafına əsasən ixtisaslaşır. Bu, uşaqların sağlamlığı üçün zərərli olmaqla, bir sinifdən digər sinfə keçid zamanı daha tez yorulmalarına səbəb olur. Beyin yarımkürələri narahat vəziyyətdə olur və sönür; sol yarımkürənin fəaliyyəti, cəbri təfəkkür geri qalır. Sağ yarımkürə - intuitiv, obrazlı, yaradıcı təfəkkür isə adi məktəbdə heç oyanmır. Buna görə də sinergetik pedaqogikada dərslər obrazlı-emosional və zehni dövrün fənləri bərabər qaydada qurulur (7).

**Problemin aktuallığı.** Cəmiyyətin inkişafında vətəndaşların rolu əvəzsizdir. Vətəndaşın cəmiyyətin inkişafında fəal iştirak etməsi onda müəyyən əxlaqi-mənəvi keyfiyyətlərin olmasını tələb edir. Müasir dövrdə ölkəmizin qarşısında duran əsas strateji məqsədlərin vətəndaş cəmiyyəti və hüquqi dövlətin formalaşması proseslərinin elmi, metodoloji və nəzəri əsaslarının işlənib hazırlanmasında sinergetik yanaşma mühüm rola malikdir. Sinergetika dərketmənin yeni strategiyasını yaratmışdır.

**Problemin yeniliyi.** Təhsil sistemi özünü təşkiledən, açıq mürəkkəb sinergetik sistemdir. Müasir tələblərə cavab verən mükəmməl təhsil sistemi yaratmaq üçün sinergetik yanaşmadan istifadə etmək müasir dövrün tələbidir. XXI əsrin modeli - təlim və tərbiyənin əsas ideyalarının, məqsədlərinin, prinsip və metodlarının tam sistemidir. Müasir dərsin əsas məqsədi dialoq, əməkdaşlıq, qarşılıqlı anlaşma və həyatın rəngarəngliyindən müstəqil faydalanmağa istiqamətlənən yeni insanı formalaşdırmaqdır.

**Problemin praktik əhəmiyyəti.** Təhsildə sinergetik sistemin əsas məqsədlərindən biri şagirdlərin soy-kökünü, Vətən tarixini dərk etmək, vətənpərvərlik hisslərinin aşılanması və onlarda vətəndaşlıq tərbiyəsinin formalaşdırılmasına təkan verməkdir. Tədris prosesində öyrənənlərdə vətəndaşlıq tərbiyəsinin formalaşdırılmasının mühüm əhəmiyyəti vardır.

## ƏDƏBİYYAT

1. Mehrabov A., Abbasov Ə., Zeynalov Z., Həsənov R. Pedaqoji texnologiyalar. Bakı: Mütərcim, 2006.
2. Рузавин Г.И. Синергетика и диалектическая концепция развития // Философия науки, 1989, № 5
3. Əliyev H., Mərdanov M., Quliyev. Təhsil millətin gələcəyidir. Bakı: Çaşıoğlu, 1999.
4. Коменский Я.А. Избранные педогогические сочинения. Т. 1. М.: Педогогика, 1982.
5. Howard Qardner. Ağıl çərçivəsində. Anq, 1983.
6. http://infed.org/mobi/howard-gardner-multiple-intelegences-and-education/
7. www.muallim.edu.az

**Т.М. Исаева**

**РОЛЬ СИНЕРГЕТИКИ В ПОВЫШЕНИИ ЭФФЕКТИВНОСТИ ОБУЧЕНИЯ В ОБРАЗОВАНИИ**

***РЕЗЮМЕ***

Термин "Синергетика" происходит от греческого «синергена» содействие сотрудничества, совместное действие. Сегодня в науке с помощью новых технологий и методов осуществляется новое методологическое направление синергетики. Синергетика играет большую роль в повышении эффективности обучения в науке.

**T.M. Isayeva**

**THE ROLE OF SYNERGETICS IN IMPROVING THE EFFECTIVENESS OF TEACHING IN EDUCATION**

***SUMMARY***

The term "Synergetics" comes from the Greek "synergene" promoting cooperation, joint action. Today a new methodological direction of synergetics is being implemented in science with the help of new technologies and methods. Synergetics plays an important role in improving the effectiveness of teaching in science.

**Redaksiyaya daxil olub:** 02.02.2018